Azərbaycan. - 2025.- 6 sentyabr (№ 189).- S. 5.

# Karpaç İqtisadi Forumunda Azərbaycan imzası

**Bu gün dünya misli görünməmiş şəkildə bir-birinə bağlı, bir o qədər də ziddiyyətlidir. Qlobal iqtisadi böhranlar, siyasi gərginliklər və sürətlə dəyişən texnologiyalar fonunda dövlətlərin, biznesin və cəmiyyətlərin bir masa ətrafında dialoq qurması kabinetlərdə yox, forumlarda baş tutur.**




Davos Dünya İqtisadi Forumu, Münxen Təhlükəsizlik Konfransı, Boao Asiya Forumu və s. kimi beynəlxalq tədbirlər dünyanın istiqamətini müəyyən edən müzakirə platformalarıdır.

Bu kontekstdə Mərkəzi və Şərqi Avropanın ən mühüm siyasi-iqtisadi tədbirlərindən olan Karpaç İqtisadi Forumu regionun "Şərq Davosu" adlandırılacaq qədər nüfuz qazanıb. Karpaç İqtisadi Forumunun tarixi 1992-ci ildən başlayır. Əvvəllər Polşanın Krınitsa-Zdruy şəhərində keçirilən tədbir 2020-ci ildən etibarən Karpaça köçürülüb. Hər il Polşanın bu dağətəyi şəhərində keçirilən forumda, əsasən, iqtisadi məsələlər müzakirə olunur. Məqsəd hökumət nümayəndələri, siyasətçilər, biznes liderləri, alimlər və vətəndaş cəmiyyəti arasında regional və qlobal məsələlərə dair səmərəli dialoqu təmin etməkdir. 60-dan çox ölkədən yüzlərlə iştirakçının toplandığı foruma dövlət başçıları, nazirlər, biznes nümayəndələri, qeyri-hökumət təşkilatları və akademiklər qatılırlar. Azərbaycan da zaman-zaman bu forumda müxtəlif nümayəndələrlə təmsil olunur.

Qlobal gündəmin müzakirə olunduğu belə bir platformanın bu günlər keçirilən sayca 34-cü forumu "Keçid dövrü - Avropanı nə gözləyir?" mövzusuna həsr edilmişdir. Forumda iştirak edən Azərbaycanın nümayəndə heyəti adından İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru, professor Vüsal Qasımlı çıxış etmişdir. Diqqətə çatdırmışdır ki, yaxın illər Orta dəhlizin əhəmiyyəti daha da artacaq. Dünya Bankının proqnozlarına istinad edən natiq bildirmişdir ki, 2030-cu ilədək Çin və Avropa İttifaqı arasında ticarət dövriyyəsi 30, Avropa İttifaqı ilə Azərbaycan, Gürcüstan və Qazaxıstan arasında isə 28 faiz artacaq. Artan ticarət həcmi fonunda Orta dəhlizin yalnız alternativ marşrut kimi yox, strateji nəqliyyat və iqtisadi arteriya kimi formalaşması artıq zamanın tələbidir. V.Qasımlının sözlərinə görə, bu artım yükdaşımaların çevik, səmərəli və koordinasiyalı şəkildə idarə olunmasını qaçılmaz edir.

Daha sonra Vusal Qasımlı diqqətəlayiq faktlarla zəngin olan "Orta Dəhliz: cari reallıqların təhlili və perspektivlərin dəyərləndirilməsi" adlı kitabı iştirakçılara təqdim etmişdir. Nəşr İİTKM-in İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) və Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq İnstitutu (CAREC) ilə tərəfdaşlığı nəticəsində ərsəyə gəlib. Kitabın ideyası ilk dəfə 2023-cü ildə keçirilən Karpaç İqtisadi Forumunda irəli sürülüb. Sonra isə Orta dəhliz mövzusunu dərindən araşdırmaq və beynəlxalq elmi ictimaiyyətə təqdim etmək üçün geniş tədqiqat komandası yaranıb. Komandanın üzvləri Azərbaycan, Türkiyə, Qazaxıstan, Çin, Böyük Britaniya, Serbiya, Pakistan, Avstriya, İspaniya və Meksika daxil olmaqla 10 ölkədən 22 alim olub. Beynəlxalq əməkdaşlığın məhsulu olan nəşr Avropanın nüfuzlu elm mərkəzlərindən sayılan Tırqu Mureş Universitet Nəşriyyatı (University Press Targu Mureş) tərəfindən ingilis dilində çap edilib. Kitab yalnız elmi çevrələr üçün deyil, həm də nəqliyyat, ticarət və geosiyasi məsələlərlə maraqlanan geniş oxucu kütləsi üçün dəyərli mənbə hesab olunur.

Kitabda Orta dəhliz tarixən İpək yolunun canlanması ilə formalaşan yeni nəsil ticarət marşrutu kimi təqdim edilir. Nəşrdə dəhlizin keçdiyi ərazilərdə yerləşən limanlar, sərhəd-keçid məntəqələri, magistral yollar və digər infrastruktur imkanları ətraflı təhlil edilir, konkret təkliflər irəli sürülür. Həmçinin İpək yolu regionunda enerji geosiyasəti geniş şəkildə araşdırılır, "TRACECA" proqramı, "Bir kəmər, bir yol" təşəbbüsü, Orta dəhliz və Zəngəzur dəhlizi (TRIPP) kimi layihələrin regiondakı inteqrasiya, əməkdaşlıq və rəqabət mühitinə təsiri xüsusi vurğulanır.

Orta dəhlizin potensial imkanlarının reallaşdırılması üçün regional ticarətin təşviqi, özəl sektorun fəal iştirakı və bütün infrastruktur sahələrin sinxron inkişafının tövsiyə olunduğu kitabda yeni ödəniş və klirinq sistemləri, fintex və rəqəmsal maliyyə mexanizmlərinin xarici ticarət üçün yaratdığı imkanlar araşdırılır, milli valyutaların istifadəsi, rəqəmsal bankçılıq və kriptovalyutaların regional maliyyə əməkdaşlığında rolu önə çəkilir. Bundan başqa, ticarət, investisiya və azad iqtisadi zonalar üzrə aparılan araşdırmalarda ikitərəfli sazişlərin təsiri, sərhədyanı zonaların əhəmiyyəti və infrastrukturun inkişafı ilə bağlı investisiya imkanları təhlil olunur, yerli kiçik və orta sahibkarlığın logistika proseslərində iştirakının artırılması və onlar üçün bərabər imkanların yaradılması zəruri hesab edilir. Çünki Orta dəhliz nəqliyyat arteriyası kimi XXI əsrin iqtisadi xəritəsini yenidən çəkir. Hər keçən gün daha çox ölkə, daha çox investor, daha çox tərəfdaş yolun əhəmiyyətini dərk edir.

30 ildən çoxdur Karpaç İqtisadi Forumu dialoqların, ideyaların və strateji baxışların qovuşduğu unikal bir tədbir kimi tanınaraq regionlar arasında körpülər salmağa davam edir. Burada səsləndirilən strateji bəyanatlar, aparılan debatlar, ortaya qoyulan təşəbbüslər bütövlükdə Avrasiyanın gələcəyinə yön verir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***